GÖZƏLİM HƏYAT

Hislərim olsaydı şəfəqlər kimi,
Gözəlim həyatı saçaqlayardım,
Qollarım olsaydı üfüqlər kimi,
Bütün kainatı qucaqlayardım.

DİNLƏYİN

Seçkilər göstərdi ki, hələ yamandır halımız,
Böylə getsə bitməyən zülmətdir istiqbalımız.

Məmləkət qan ağlayır, bağrında zillət, neyləsin?!
Millətin bir loğmanı yoxdursa, millət neyləsin?!

Yurdumuz, aləm bilir ki, qəhrəmanlar yurdudur,
Ordumuz yoxdursa da, türkdaşlarım bir ordudur.

Ordu millətdir bizim millət, ölümdən qorxmarız,
Sevgili millət yolunda top-tüfəngə baxmarız.

Uymarız fitvasına iblislərin, casusların,
Bir sürü satqın gedər ardınca binamusların.

Haqq deyən bir millətin imdadına haqq gəlməli,
Ayla yıldızla gülən üçrəngli bayraq gəlməli!

Ey bugün öz nəfini candan güdənlər, dinləyin,
Şöhrəti rüşvətlə almış boş gödənlər, dinləyin!

Tülkülərmi başçısı qurdlarla dolmuş vadinin?
Dinləyin şah beytini ustad Məhəmməd Hadinin:

"Bir nişan almaqdan ötrü satmayın bu milləti,
Millətin, milliyyətin heç yoxmu sizdə qeyrəti?!.."

1990

AXIB GEDƏN GÜNLƏRİMİZ

AXIB GEDƏN GÜNLƏRİMİZ

Ölüm sahili yox, dəniz,
Sularını bölənmi var?!
Axıb gedən günlərimiz
Hara gedir, bilənmi var?!

Başını qucaqlayanın,
Bağrını ocaqlayanın,
Ovuc-ovuc ağlayanın
Göz yaşını silənmi var?!

Günəş göylərin ilhamı,
Yerlərin toyu, bayramı,
Həyat üçün ölür hamı,
Ölüm üçün ölənmi var?!

Bu sevgi macərasında,
Məcnunların arasında,
Ağlayanlar sırasında
Ağlayana gülənmi var?!

Rəfiqim, bax bu dünyaya,
Sualla dolu dünyaya,
Bu dünyadan o dünyaya
Gedən gedir, gələnmi var?!

1982

EL GÜCÜ – SEL GÜCÜ

Dünya bir günəşli ömür sərgisi,
Çeşidli dillərdə könül şərqisi,
Vətəndaş olana vətən sevgisi
Sevgilər içində ən təmiz, oğlum!

Bil ki, zirvələrdən axan bulaqlar
Dərələr içində sel kimi çağlar,
Sellər taleyini çaylara bağlar,
Çaylardan yaranar bir dəniz, oğlum!

Bütün canlıların canı yeməkdir,
Ancaq insanların şanı əməkdir,
Mən demək nə demək, sən nə deməkdir?
Ulusdan ayrılsaq heçik biz, oğlum!

Ölüdür sağ ikən unudulanlar,
Uludur yox ikən yadda qalanlar,
Yel kimi sovuşar yüngül olanlar,
Ağırlar gedincə qalar iz, oğlum!

Hər kəsin önündə iki yol durur,
Birinci baharla qəlbi doldurur,
İkinci xəzana salıb soldurur,
Üçüncü yol yoxdur, ey əziz, oğlum!

1983

DOST SEVGİSİ

Dostu dünyada Rəfiqin demə çoxdur, ey dost,
Qələmi düşməninin bağrın oxdur, ey dost,
Gözü düşmən sarıdan daima toxdur, ey dost,
Düşməni olmayanın dostu da yoxdur, ey dost!

Dost saralmaz bir ağacdır ki verər bar gündə,
Bir sərinlik gətirər kölgəsi qızmar gündə,

Dayanar dağ kimi arxanda sənin dar gündə,
Gündə varsın sənə o, sən də ona var gündə!..

Dostların külfətidir doğma bilən külfətimi,
Verməərəm aləmə dostlarla olan ülfətimi,
Açaram sərvətə düşgünlərə dost sərvətimi,
Saçaram nifrətə layiqlərə öz nifrətimi!

Kəsilən duz-çörəyim düz çörək olmuş ancaq,
Bayquşu andıran alçaq əbədi tək qalacaq,
Üzünə, yüz yerə getsin, qapılar çırpılacaq,
Kimsəsiz qalmış iki başdaşıdır dostsuz ocaq!

Alqış ömrün bağına dostunu bağban edənə,
Onu illər boyu karvanına sarban edənə,
Dost gələn yolları eşqiylə çırağban edənə,
Bircə yol can deməyib, canını qurban edənə!

1983

ƏRDƏMLİLƏR

Söz almayaq nə ərəbdən, nə farsdan,
Yetər bizə aydan arı dilimiz.
Xəzər kimi doğub Kürdən, Arazdan
Şirvanımız, Muğanımız, Milimiz!

Qovulmalı yüz obadan, yüz eldən,
Uydurmaya ağlabatan deyənlər.
Xalqımıza yabançıdır əzəldən,
Yurdumuza "Atrapatan" deyənlər.

Midiyanın nə dəxli var bizlərə!
Gerçəkçilər aranılsın, bilinsin.
O sözlər ki örtü çəkir üzlərə
Ürəklərdən, diləklərdən silinsin!

Dədə Qorqud, Dədə Oğuz andımız,
Canımızda, qanımızda ürkü yox!
Yağılara tük saldırıb adımız,
Ruhumuzda bir yabançı türkü yox!

Öz dilini, öz elini duyanlar
Öz dilinə, öz elinə uymalı!
Ərdəmlilər soyu tutar, soy anlar,
Soysuzların dərisini soymalı!..

1982

MƏN QARA DƏNİZƏ AŞİQ OLMUŞAM

Dostum Fəraməz Maqsuda

Hər kəs bir gözələ bağlayır könül,
Mən Qara dənizə aşiq olmuşam!
Onun sularıyla çağlayır könül,
Mən Qara dənizə aşiq olmuşam!

O, mənim ürəyim, o, mənim canım,
Yanına gələndə gedər fəğanım,
Ondan ayrılanda qaralar qanım,
Mən Qara dənizə aşiq olmuşam!

Könlümün onadır umudu, meyli,
Məcnunun olmuşam, olurmu Leyli?!
Görməsəm gileyli, görsəm gileyli,
Mən Qara dənizə aşiq olmuşam!

Dumanım bir dəniz, çənim bir dəniz,
Kəsilib ömrümə qənim bir dəniz,
Bir dəniz qəmim var mənim, bir dəniz,
Mən Qara dənizə aşiq olmuşam!

Dərdimi dənizlər bilərmi ola?
Çaylar harayıma gələrmi ola?

İnsanlar bu eşqə gülərmi ola?
Mən Qara dənizə aşiq olmuşam!

Böylə sitəm olmaz, böylə dağ olmaz,
Dumanım dağılsa, dünya dağılmaz!
Dənizi götürüb qaçırmaq olmaz,
Mən Qara dənizə aşiq olmuşam!

Bir dəniz həsrətə insanmı dözər?
Həzər iztirabın üzündən, həzər!
Kürü elçi göndər, ay anam Xəzər,
Mən Qara dənizə aşiq olmuşam!

1983

MƏZAR DAŞIM ÜÇÜN

Türk millətinə Tanrı yar olsun,
Türk yurdu əsrlərcə var olsun!..

SABAH YELİ

Sabah yeli, sabah yeli,
Nə əsərsən dəli-dəli?

Dalğalanır dan yerində,
Günəşin uca məşəli.

Göydə cərgələnən quşlar,
Ötər nəşəli-nəşəli.

Yamaclar qızıl laləli,
Çəmənlər mor bənövşəli.

Duman çəkilir, açılır,
Təbiətin dağ heykəli.

Sərib gözəlliklərini
Bahar, gözəllər gözəli.

Sığal çəkir təbiətin,
Öz camalına öz əli.

Mavi göylər bulud-bulud,
Yerlər bulaqlı, meşəli.

Sabah yeli, sabah yeli,
Nə əsərsən dəli-dəli?!

1983

YARALI QURD

Alparslan Türkeşə

Bilə bilməm, nə gətirdi məni heyvanxanaya,
Bir də gəlsəm, gərək, ey dost, məni aləm qınaya.

Orda bir qanlı qəfəsdən ulayan qurd gördüm,
Gözlərindən saçılır şimşək, alov, od gördüm.

Öfkədən qan saçılırdı igidin çöhrəsinə,
Toplamışdı gələn insanları öz dövrəsinə.

Düşünürdüm ki, səsi canlı qopuzdur, uddur,
Bir yasaq səs eşidirdim: "Bu haman bozqurddur!.."

Ah, üzülmüşdü o, illərlə qalıb zindanda,
Üz çevirmişdi böyük Tanrı neçin ondan da?!

Tanrı türkü qorusun, söylədim, amin, qorusun!
Tanrı qurdu qorusun, rəmzi olubdur ulusun!

Tanrı türkü qorusun, nurunu salsın yurda,
Bir də duydum ki, səsim çatdı haman bozqurda!

Bir də baxdım ki o qurd dalğa kimi şaxlandı,
Bir də gördüm ki, oğuzlar kimi qurşaxlandı.

Uluyarkən ulu Allaha varırdı sanki,
Çıxacaq yox, çıxacaqlar çıxarırdı sanki.

Çıxacaqdı ürəyim mərmi kimi köksümdən,
Çaxacaqdı diləyim mərmi kimi köksümdən.

Atılırdım o canım qurdu sıxan dar qəfəsə,
Sığışarmı ürəyi dağda vuranlar qəfəsə?!

Nerədənsə ucalan türkü dedi haydı mənə,
O igid qurd necə munis, necə doğmaydı mənə!

Zillədim gözlərimi, gözlərinə göz qoydum,
Öz əlimlə yarılan bağrıma bir köz qoydum.

Nə günə qalmış idim orda, duyurdu bozqurd,
Qurda dönmüş, uluyurdum, uluyurdu bozqurd!

Uluyurdum, ulu yurdum, uluyurdum, uluyur,
Ulu yurdum, uluyurdum, ulu yurdum, uluyur!

Tanrı qurdu qorusun, rəmzi olubdur ulusun,
Tanrı türkü qorusun, söylədim, amin, qorusun!..

1984

QIŞ GETDİ, BAHAR GƏLDİ

Rüzgarlar üfüqlərlə qovuşdu,
Bir dadlı bahar türküsü qoşdu.
Dağ selləri şimşək kimi coşdu,
Donmuş suları dəldi, ay ellər,
Qış getdi, bahar gəldi, ay ellər!

Gün doğdu, qaranlıq qaçılınca,
Şəfqətli şəfəqlər saçılınca,
Bağlarda çiçəklər açılınca,
Quşlar necə kövrəldi, ay ellər,
Qış getdi, bahar gəldi, ay ellər!

Qurtuldu qar altında qalanlar,
Daim günəşə həsrət olanlar,
Bir il darılanlar, yorulanlar
Dincəldi, nə dincəldi, ay ellər,
Qış getdi, bahar gəldi, ay ellər!

Dağlar kimi bağlar da dumanlı,
Çaylarda balıqlar həyəcanlı,
Yollarda kəsəklər belə canlı,
Daşlar, sular incəldi, ay ellər,
Qış getdi, bahar gəldi, ay ellər!

Gerçəklədi röyalı könüllər,
Dünya dolu xülyalı könüllər,
Xülya dolu sevdalı könüllər
Yüksəklərə yüksəldi, ay ellər,
Qış getdi, bahar gəldi, ay ellər!

Ankara, 1987

BALIŞ NƏNƏM

Balış nənəm soyumayan bir ocaq idi,
Nəfəsinə isinərdi damımız onun.

Dizi onun balışdan da yumuşaq idi,
Nəvazişi bizim idi, tamımız onun.

Yerişiylə, gülüşüylə bir uşaq idi,
Nağılında dil açardı kamımız onun,

Gözlərindən nur yağardı gözlərimizə,
Kölgəsi bir günəş idi üzərimizə.

Nəvələri onun üçün oyuncaq idi,
Nurdan düşən gözlərirdi şamımız onun.

Balış nənə evimizdə bir çıraq idi,
İşığına yığışardıq hamımız onun.

ULU USTADLAR

Ulu ustadların eşqiylə yanın,
Həyat nə deməkdir onlar açıqlar.
Gözəl duyğulara candan bağlanın.
Gözəl sənətləri sevin, çocuqlar!

* * *

Yoxdur mənə səndən uca, səndən böyük insan,
Rəhmət sənə, rəhmət, Ata, insanlığa şansan!

Andımdır adın, eşqin ucaldıqca səsimdən,
Ərlər duyacaqlar odunu son nəfəsimdən!

Göz qoy o üfüqlərdə yanan nur dolu fəcrə,
Hər gün açılar al günəşin qaldığı hücrə!

Dünyaya bəzəkdir o qızıl dalğalı saçlar,
Eşqinlə gülümsər çalılar, güllər, ağaclar.

Sənsiz nə bahar var, nə yaşıllıq, nə gülüstan,
Sənsiz ola bilməzdi əsər yurddan, ulusdan!

Bir türkü qoşum, ruhuma candan yata türküm,
Türkdaşlarımın ninnisi olsun Atatürküm!..

FÜZULİNİN ŞƏKLİ

Rəssamların çəkdiyi Füzulinin şəklimi?
Füzulinin şəkli də yoxdur, bənzəri kimi...

BAKI – İSTANBUL

Bir dostum söylədi ki, keçib getdi çənlərin,
Keçərkən Dolmabağça, Topqapı sarayından.

Konuş, bülbüllərindən ordakı gülşənlərin,
Konuş, böyük ulusun ulduzundan, ayından!

Sevinci doğacaqmı bunca qəm yeyənlərin?
Yoxsa ox geri dönmür fırlayınca yayından?!

Dedim: qoy, salıq verim könlündən ərənlərin,
Sən də salıq alasan onların harayından.

Bakıda, İstanbulu görəydim deyənlərin,
Salam apardım ora bir bölük alayından.

İstanbulda Bakını görmək istəyənlərin,
Sayı çoxdur Bakıda olanların sayından.

İstanbul, 1987

ANAMA

Mən "annə" deyirdim anama bir zaman, "annə"!
Sənsiz, ürəyim bir teli qopmuş kaman, annə!

Solmuş atamın ətrini ətrindən alırdım,
Ətrinlə onun ətri də getdi, aman, annə!

Dörd oğlu böyütdün, ata oldun bir ocaqda,
Dərmanını dərd eylədin, ey qəhrəman, annə!

El yaxşı bilir, yaxşılığın rəmzi idin sən,
Sən yaxşı ki, bilmirsən, üzüldüm yaman, annə.

Həsrətli sabahımda günəş yox, gecəm aysız,
Sanki qapanıbdır üzümə asiman annə.

Bəxt ulduzumun nuru qaraldı gedişinlə,
Getmir neçə ildir ki, gözümdən duman, annə.

Mən indi nəyəm ki, nə atam var, nə anam var,
Başdaşları üstündə görünməz güman, annə.

Sən bir yetimə ahını man bilmə deyirdin,
Ah, mən yetimə ahı deyil indi man, annə.

Kimdir bu Rəfiqindən ömür, gün uman, annə,
Ey gözlərini ömrə ömürlük yuman annə!

1985

DÜŞMƏN

Düşmən mənə pis söz desə, əfv eyləyərəm mən,
Əfv eyləyərəm, bəlkə də səhv eyləyərəm mən.
Yurda, ulusa güldən ağır söz desə ancaq,
Bir anda gəbərdər onu, məhv eyləyərəm mən!

ÖLKƏMDƏ

Qürbət elin seyrini mən neylirəm,
İstərəm ölkəmdə olan seyrimi.
Özgələrin sirrini mən neylirəm,
Özgələrə açmaram, öz sirrimi.

YIXILMAZ

Yurdu bir an unutma, ömründə,
Yurdla çarpan ürək sıxılmaz, oğul!
Ulusundan tut ən ağır gündə,
Ulusundan tutan yıxılmaz, oğul!

YALLI YARANDI

Ulusum əl-ələ verdiyi gündən,
Yallı yarandı.
Düşmənə köksünü gərdiyi gündən
Yallı yarandı.

ÇOCUQLARIM

Həsrətəm, mən sizə, ey çocuqlarım,
Canımda qalmayıb hey, çocuqlarım!

Gecəli-gündüzlü haylaram sizi,
Könlüm bir yanıqlı ney, çocuqlarım!

Günəş soyuyubdur mənim gözümdə,
Yerdən uzaqlaşıb göy, çocuqlarım!

Gen dünya başıma dar gəlir mənim,
Fikirdən olmuşam key, çocuqlarım!

Röyada, gerçəkdə söyləməkdəyəm:
Hey yavrucuqlarım, hey çocuqlarım!

Fransa, 1984

QƏFƏSDƏ

Bülbül gözlərini qırpır qorxudan,
Özünü qəfəsə çırpır qorxudan.
Bir çocuq qəlbindən kiçik bu canlı,
Canlı bir qəlb kimi çarpır qorxudan.

İNSANLAR, CANLILAR

Ördək ördəklə şənlənər göldə,
Qarğa qarğayla leş sökər çöldə.

Sağsağan sağsağanla ülfət edər,
Tülkülər tülkülərlə həccə gedər.

Sərçələr sərçələrlə birgə qoşar,
Durnalar durnalarla dağlar aşar.

Bir pələng oğlu bir pələnglə gəzər,
Qartal oylaqlarında sar nə gəzər?!

Ayılarla ayaqlaşar ayılar,
Arılarla soraqlaşar arılar.

Dalğalar dalğalardan ayrılmaz,
Yorğalar yorğalardan ayrılmaz.

Çaqqalın oğlu çaqqala yar olar,
Qurdların çevrəsində qurdlar olar.

Düşünən canlılardır insanlar,
Onların da içində aslanlar...

Sərçələr, qarğalar, ilanlar var,
Yorğalar, tülkülər, qabanlar var.

Kim deyir, it kimi yalaqlar yox,
Dəvələr, kəlçələr, ulaqlar yox?!

Keçilər, cöngələr, qoyunlar var,
Goreşənlərlə qol-boyunlar var.

Kim deyir, bizdə gərgədanlar yox,
Çalağanlar, oranqutanlar yox.

İki diplomlu köstəbəklər var,
Kobralardan yaman bəbəklər var.

Hiylələr, fitnələr, kələklər çox,
İblisi mat qoyan "mələklər" çox.

Baş kəsən, diş sökən quduzlar var,
Söz ilə söz çəkən donuzlar var.

Rüşvətə qul olan rəzillər çox,
Hələ milçək ürəkli fillər çox.

Vay o bədbəxtə, tapmasın tayını,
Al bu sözlərdən, ay oğul, payını...

DOSTLARLA OLANDA

Dostlarsız olar sanki ölümcül kimi könlüm,
Oxşar məni sevda dəmi, dostlarla olanda.

Bir türkü ötər bir dəli bülbül kimi könlüm,
Neylər mənə dünya qəmi, dostlarla olanda?!

Dostlarla olanda açılar gül kimi könlüm,
Candan duyaram aləmi, dostlarla olanda.

KÖHNƏ DOSTLARIM

Gün aydın, ey mənim əski dostlarım,
Uzun illər boyu uzaq düşmüşük.
Sizinlə üzümə güldü baharım,
Nə mutlu bizə ki, biz görüşmüşük.

Siz acı günlərdə bir loğman kimi,
Azmı dayandınız mənim önümdə?
İnlərdi ürəyim bir kaman kimi,
Sizi, görməsəydim yaman günümdə.

Candan umutludur, içdən umutlu –
O dost ki dostlara can dilər, sevər.
O mutlu yaşayar, ona nə mutlu,
Ürək dilərsə ver, can dilərsə, ver!

A dostlar, sizinlə necə doğmayıq!
Gözlər o gözlərdir, sözlər o sözlər!
Çox da ki çox sular adlayıb qayıq,
Çox da ki dəyişib sevimli üzlər.

Hər dost bir aləmə könül versə də,
Kim deyir, dostluqda qədir bilmədik.
İllər üzdən bizi dəyişdirsə də,
Dəyişdirilsək də, dəyişilmədik...

1986

MƏHKUM XALQIMA

Boynunda duran zəngiri bir gün qıracaqsan,
Azadlığın eşqiylə o gün hayqıracaqsan!

1980

BİR ŞAİRİN ÖMRÜ

Bir şairin ömrü, alışan canlara candır,
Bir şairin ömrü, bir ömürlük həyəcandır!

1981

QUCAĞINDADIR

Bu torpaq anamdır, ömrüm ondadır,
Atam da, anam da qucağındadır.
Mənim canım-gözüm bu torpaq ana,
Bir sabah məni də basar qoynuna.

ƏBƏDİ

Gedəcək zillət, əsarət bu gidi dünyada,
Haqq, ədalət əbədidir, əbədi dünyada.

DİLİMDƏN DÜŞMƏYƏN

Özgələr çoxdan görüb, sən gör ki, sən,
Sən, dilimdən düşməyən, bir türküsən,
Könlümə nurdan yapılmış hörküsən,
Sən dilimdən düşməyən, bir türküsən.

Can de ki, canım səni həmdəm bilir,
Dərdimə məlhəm bilir, məhrəm bilir,
Sən də bil ki, artıq el-aləm bilir,
Sən dilimdən düşməyən, bir türküsən.

AĞ TUT AĞACI

Getdi, bu dünyaya gətirən səni,
Bu ana torpaqda bitirən səni,
Getdi boya-başa yetirən səni,
Yaz gəlib, quruma, gözəlim Ağ tut,
Ruhunu qüssədən, qəmdən uzaq tut!

Başına dolansın sevdalı quşlar,
Könlünü oxşasın yağan yağışlar,
Xəzanlar ömrünü sənə bağışlar,
Özündən bəlanı, dərdi yasaq tut,
Əzizim, sevimlim, gözəlim Ağ tut.

Yetər yaxıldığın, qara bağlama,
Bağrının başına yara bağlama,
Edib ovqatını xarab, ağlama,
Nə boran qəbul et, nə də sazaq tut,
Canım, mehribanım, sevincim Ağ tut!

Qovuş aydınlığa, zülmət qaçılsın,
Fidan varlığına şəfəq saçılsın,
Tutqun könül kimi pasın açılsın,
Nə məlala tutul, nə də pasaq tut,
Qovuş ağ günlərə, ağlama, Ağ tut!

1961

MÜŞFİQ KÜÇƏSİNDƏ

Gənclər, qocalar neşəli, Müşfiq küçəsində,
Parlar bir ömür məşəli Müşfiq küçəsində.

Müşfiq küçəsində açılar nəğməli könlüm,
Könlüm dəlidir, mən dəli, Müşfiq küçəsində.

Burda yaşamış, burda yaratmış iki ustad,
Bir ev görürəm lövhəli, Müşfiq küçəsində.

İndi hanı Cəfər, hanı Müşfiq, hanı dağlar?
Dağlar hanı, dağ cüssəli, Müşfiq küçəsində?!

Bir dadlı xəyal oldu, dumanlandı o illər,
Bir xatirə var kölgəli, Müşfiq küçəsində.

Alqışlayır ellər ulu ustadları candan,
Ellər nə qədər öfkəli, Müşfiq küçəsində.

Nakam Mikayıl Müşfiqin, əlbəttə ki bir gün
Yüksəlməlidir heykəli Müşfiq küçəsində.

OCAQ

Yunis Əmrə ocağına
Gələnlərə salam olsun,
Qaranlığı şimşək kimi
Dələnlərə salam olsun.

Salam olsun gələcəyə,
İşıq tutan bir ürəyə,
Haqq yaşasın deyə-deyə,
Ölənlərə salam olsun.

İlham alıb gündüzündən,
Doğmaların gül üzündən,
Yasaqları yer üzündən
Silənlərə salam olsun.

Sevincini ərənlərlə,
Dərdə köküs gərənlərlə,
Saza könül verənlərlə
Bölənlərə salam olsun.

Salam o çağlayanlara,
Yurdu qucaqlayanlara,
Ulusla ağlayanlara,
Gülənlərə salam olsun.

Bu dünyada cənnət nədir,
Ömür nədir, ziynət nədir,
Şeir nədir, sənət nədir
Bilənlərə salam olsun.

İDBAR

Üzdən gözəl bir qızın
Qəlbi idbar olanda,
Deyirsən dərd yarıdır.

Üzü kimi içi də
İdbardan idbar olan,
İdbarlar idbarıdır!

NEYLƏR

Hücum eyləyərmi pişik pələncə?
Pələng başlayarmı pişiklə cəngə?!
Ağzından süd iyi gələn bir çocuq,
Neylər boynu yoğun bir pəzəvəngə?!

OVÇU

Yumdu bir gözünü bir ov oğrusu,
Düşdü böyrü üstə maral yavrusu.
Nadan irişirdi, dingildəyirdi,
Orman bir sükutla inildəyirdi...

YURD GÖZƏLLİKLƏRİ

Bu gözəlliklərə vardıqca, ürəklər vuracaq,
Coşaraq şair olanlar qoşacaq dastanlar.
Yurd, ulus sevgisi varlıqda durunca, duracaq –
Bu gözəllikləri yoxdan yaradan insanlar!

NƏ ÇIXAR

Söyləyən arif ola, dinləyən abdal, nə çıxar?
Nə çıxar? Çıxsa ya bir hiylə, ya bir fitnə çıxar!

* * *

Yerləri bürüyüb ağappaq cuna,
Göylər də bağlayıb buz, sular kimi
Dalıb ağaclar da qış yuxusuna,
Onlar da uyuyur ayılar kimi.

KRIM

Mən yenə qonağın oldum, ay Krım,
Güldü gözlərimdə ulduz, Ay Krım!
Qoy, sənə sevgimi, sənə haykırım.

Seyrinə qoyulsam ömrüm boyunca,
Deməərəm, mən sənə baxdım doyunca.

Adıma bir zaman dastan yazmışam,
Qohumdan, qardaşdan, dostdan yazmışam,
Bayramdan yazmışam, yasdan yazmışam.

Deyirəm, nə olar bir daha yazsam,
Ürəyim boşalmaz, yazsam, ha yazsam!

Yadların əliylə olub yağma sən,
Qoynunda görmüsən sıxma-boğma sən,
Sən bilsən nə qədər mənə doğmasan!

Sən mənim yarımsan, yarım, ay Krım,
Sən yarı canımsan, Krım, ay Krım!

Görüb meyvələri şaşırır adam,
Qarpız, alma, gilas, alça, tut, badam,
Mənmi bu üzümlü bağlara yadam.

Mənimsən, hər bitkin, hər nemətinlə,
Havanla, suyunla, təbiətinlə.

Sevimli ünvanlar, sevgili adlar,
Mehriban soyadlar, əziz soyadlar,
Ruhunu nə qanar ruhuna yadlar?!

Sən söylə, kiminsən, Krım, ay Krım,
Necə bu tilsimi qırım, ay Krım!

Suların mərcandır, qumların almaz,
Desəm, söz olacaq, deməsəm, olmaz,
Kim sənin eşqinlə dərdə tutulmaz?!

Ölsün bu dünyada talançı kəslər,
Ziyançı, yabançı, yalançı kəslər!

Gəmilər yollanır hara dənizdən?
Açıla bilərmi ara dənizdən?
Hara boylanırsan Qara dənizdən?

Görürəm, nə qədər canında can var,
İçində sürəkli bir həyəcan var.

Çəkilsin havanın ağır bürküsü,
Dinir radioda könül türküsü,
Könül türküsünün yoxdur ürküsü.

Səni mənim kimi duyanların var,
Harayçıların var, hayanların var.

Yaşa güllərinlə, çiçəklərinlə,
Dalğalar adlayan küləklərinlə,
Dağlarda qılınc çək şimşəklərinlə!

Alovlu qəlbində çarpsın ildırım,
Sənə qurban olum, Krım, ay Krım!

1984

* * *

Arazın ölümdən olmaz hürküsü,
Həyat hörgüsüdür onun hörgüsü.
Ana dilimizdə dil açıb Araz,
Bizim türkümüzdür, onun türküsü!

* * *

Telefonla çox uzun konuşa bilmirəm mən,
Ən əziz adam olsun, danışa bilmirəm mən.

Mənimlə konuşurkən məndən incimə, ey dost,
Dostundan Rəfiq Zəka soyuyub demə, ey dost.

Baxmayınca gözlərim gözlərinin içinə,
Yasaq olur sözlərim könlümün sevincinə.

* * *

Qəribin üstünə sanki dağ gəlir,
Qürbət alçaqlara oyuncan gəlir.
Yurd daşı qürbətdən gələn yurddaşa
Qürbət yastığından yumuşaq gəlir!..

BİR YURD Kİ...

Bir yurdu iki çapqın əli parçalayırsa,
Yadlar ulusun dərdinə min dərd calayırsa,
Yan, yan deyə köksündə ocaqlar qalayırsa,

Düşmənləri qan-qan deyə meydan sulayırsa,
Var-dövlətinə sahib olursa, talayırsa,
Yurddaşları quldurlara quyruq bulayırsa,
Matəm gününü bayram edib, qutlu sayırsa,
Bülbüllərinin üstünə bayquş ulayırsa,
Soydaşları yad, özgələri doğma sayırsa,
Alçaqlar onu qurcalayırsa, dalayırsa,
Ölmüş kimidir yurd, nə bilən var, nə gələn var
Ölməz o ulus ki, onun uğrunda ölən var!..

1985

* * *

Bir halda ki, ergəc öləcəkdir hamı, bilməm,
Dünyada yaşarkən nə demək qorxmaq ölümdən?!
Gülsün bütün insanlığa aləm dolu aləm,
Biz qorxmalıyıq daima bir sarsaq ölümdən.

* * *

Köksündə açıb yara,
Ulu bir sənətkara,
Fitnəyə vara-vara,
Daş atmağa nə var ki?!

Gizləyib cəvahiri,
Öldürüb diri-diri
Ölümsüz bir şairi
Yaşatmağa nə var ki?!

ULULAR XƏZİNƏSİ

Şanlı ustadlarındır nə varsa yaddaşımda,
Saysız incilərini saxlayıram başımda.

Bu incilərin ömrü işıq ömründən uzun,
Zaman-zaman parlayar duyğumda, təlaşımda.

Dilimin əzbəridir ərənlərin adları,
Bu gerçəkdir söyləyər yarım da, yoldaşım da.

Yurd uğrunda can verən o ulu yurddaşların
Xəyalıdır titrəyən daima göz yaşımda.

Onların sərvətidir ömür sərvətim mənim,
Onlardır ziynətim də, incim də, daş-qaşım da

Bu tükənməz xəzinəm çocuqlarıma keçsə,
Gül açar diləklərim torpağımda, daşımda...

1984

DÜŞMƏNİM VARMI DEDİN

Dost olan yerdə tikanlıq da gülüstanlıqdır,
Dostuna can verənin dostluğu dastanlıqdır.
Düşmənim varmı deyirsən qoca dünyada mənim?
Düşmənim çoxdur, oğul, bir qəbiristanlıqdır

ATAMIZ

Könül sizə türküsünü açıqlar,
Sevginizlə ətirlənir butamız.
Atanız "Ata" deyin, çocuqlar,
Gecə-gündüz yada düşsün Atamız!..

GÜNAHLAR

Anıb günahlarını bunca tutulma, oğlum,
Bunca xəcalət çəkib, pərişan olma, oğlum!
O bəd əməllərinçin sən ki, xiffət çəkirsən,
Demək, dəcəlliyinin üstündən xətt çəkirsən.

DEYƏNDƏN

Hər yurddaş olandan yoldaş olarmı?!
Hər yoldaş olandan sirdaş olarmı?!
Hər oğlum deyəndən atamı olmuş?!
Hər qardaş olandan türkdaş olarmı?!

KİMLƏRDİR

Günəşsiz gündüzdən,
Tufansız dənizdən,
Ulduzsuz gecədən,
Ətirsiz qönçədən,
Sevdasız şeirdən,
İlhamsız şairdən,
Alovsuz kömürdən,
Sevgisiz ömürdən,
Nəğməsiz bulaqdan,
Gülüşsüz dodaqdan
Kimlərdir xoşlanan?
Duyğusu daşlanan
Ürəksiz adamlar,
Gərəksiz adamlar.

QARA GÖZLÜM

Nailəmə

Gülüm, mən öləndə qara bağlama,
Qara çərçivəyə alma şəklimi.
Xəzana uğradım deyə ağlama.
Xəzələ bürünən bir çiçək kimi.

Qara qəlbliləri qoyma sevinsin,
Qaralma önündə qara üzlərin.
Könlümün odunu duyub isinsin
Gözümün işığı qara gözlərin.

Səsimi eşitmək istədiyin gün,
Varaqla birini kitablarımdan.
Görməmək, duymamaq məni nə mümkün
Mənim sözlərimdən, xitablarımdan?!

Könlümün dünyası şeirlərimdir,
Ordadır çeşidli ovqatım mənim.
Ömrümün aynası şeirlərimdir,
Ordadır min dürlü sovqatım mənim.

Aydanım, Xəndanım qoyma sıxılsın,
Qıyma ürəkləri boyansın qana.
Qoyma çocuqlarım yanıb yaxılsın.
Atasız ocaqda atadır ana.

Ürəyim dursa da, mənliyim durar
Çay kimi durmayan kəlmələrimdə,
Qəmli durmasanız, şənliyim durar
Efirdə durulan nəğmələrimdə.

Şairin həyatı bitməz qəbirlə,
Dünyaya sığmayan qəbrə sığarmı?
Mənsiz yer üzündə yaşa səbirlə,
İtirib-axtaran gör məni varmı?

Ölər o şair ki, ondan əsər yox,
Sən məni soraqla, ay qara gözlüm,
Görsən ki, Zəkadan xəbər-ətər yox,
Onda qara bağla, ay qara gözlüm!

1985

SEVGİLİM, SEVGİM

Mən könüldən elimin aşiqiyəm,
Min könüldən dilimin aşiqiyəm,
Sevgilim, yurddur, ulusdur sevgim,
Sevgimin, sevgilimin aşiqiyəm.

ÖNCƏ VƏTƏN

ANA YURD

Odum, közüm yurdum,
Gülən üzüm yurdum,
Görən gözüm yurdum,
Ürək sözüm yurdum!
Döyüşdə tək qalsa,
Vuran ürək qalsa,
Çəkilməz arxandan
Rəfiq Zəka Xəndan.

Ulus bir incindir,
Sənin güvəncindir,
Ömür sevincindir,
Bir odlu gəncindir,
Vurar, yaxar, dağlar,
Alovlanar, çağlar.
Qalıb Oğuz xandan,
Rəfiq Zəka Xəndan.

Sayın deyildir az,
Qopuz, davul, ud, saz,
Dinincə parlar yaz,
Ölüncə ayrılmaz
Koroğludan qalmış,
Qıratla hay salmış
Qılıncla qalxandan,
Rəfiq Zəka Xəndan.

Çağıldayan türkü
Oğulların görkü.
Başında yox börkü,

İçində yox ürkü,
İnanmasan, qorxud!
Mənim dədəm Qorqud.
Olubmu qorxandan,
Rəfiq Zəka Xəndan?!

1985

ULUSUM MƏNİM

Ey şair ürəkli ulusum, mənim,
Ey Ayım, Günəşim, ulduzum mənim!

Nurunla canlanır can gülüstanım!
Sənin tarixindir ömür dastanım!

Məcnunun olmuşam, Leylim sənindir,
Qələmim, ilhamım, şerim sənindir!

Sənə min könüldən aşiq olmuşam,
Min candan eşqinə sadiq olmuşam.

Vicdanın ilahi, kamalın ülvi,
Gözə görünməyən camalın ülvi.

Daima hüsnünü arar-gözlərim,
Sənin sözlərindir mənim sözlərim.

Mən ki, dil açmışam sənin dilində,
Bir çocuq kimiyəm sənin əlində.

Laylan, sazın, türkün, ağın, bayatın
Yaşamaq zövqüdür mənə həyatın.

Ey əzəli dahi, əbədi dahi,
Gözümdə hər şeydən sənsən ilahi!

Sən mənə öyrətdin bu dünya nədir,
Varlığın nə qədər dahiyanədir!